# “Heydər Əliyev və Nizami Gəncəvi”

**Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsi və Azərbaycan Yazıçılar Birliyi Gəncə Bölməsinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və dahi Azərbaycan şairi Nizami Gəncəvi” mövzusunda elmi-praktik konfrans keçirilib.**

Nizami Gəncəvi Muzeyinin salonunda keçirilən elmi-praktik konfransı giriş sözü ilə açan AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev bildirib ki, ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycanın müxtəlif əsrlərdə yaşamış klassiklərinin yaradıcılığının dərindən öyrənilməsi və geniş təbliği məsələlərini milli ictimai şüurun zənginləşdirilməsinə təkan verə bilən başlıca amillərdən hesab edib. Ümummilli lider Heydər Əliyev Azərbaycanın tarix və mədəniyyətində önəmli şəhər olmuş Gəncənin, eləcə də onun böyük övladı Şeyx Nizaminin milli varlığımızda tutduğu uca mövqeyi yüksək dəyərləndirib.

AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin müdiri, professor Həsənbala Sadıqovun “Heydər Əliyevin Gəncə şəhərinə tarixi səfərləri və Nizami Gəncəvi məqbərəsi ilə bağlı məsələlər”, bölmənin Nizami Gəncəvi Mərkəzinin şöbə





müdiri, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarovun “Ulu öndər Heydər Əliyevin Azərbaycan nizamişünaslığının inkişafında rolu”, Nizami Gəncəvi Muzeyinin direktoru Elşən Hacıyevin “Heydər Əliyev və Nizami Gəncəvi dühası”, Azərbaycan Yazıçılar Birliyinin Gəncə Bölməsinin rəhbəri Xəzangül Hüseynovanın “Nizami Gəncəvi yaradıcılığında dünyəvilik” mövzularında çıxışları dinlənilib. Digər mövzularda da maraqlı çıxışlar olub.

Konfransda dinlənilən mövzular ətrafında fikir mübadiləsi aparılıb. Əməkdar mədəniyyət işçisi Bəxtiyar Muradov, Azərbaycan Texnologiya Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Süsənbər Məmmədova və Gəncə Dövlət Universitetinin müəllimi Vüsal İsgəndərov müzakirələrdə çıxış ediblər.

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

Xalq qəzeti .- 2023.- 14 mart.- S.7.